# “News Blaze”: Dağlıq Qarabağdan olan məcburi köçkünlərin itkiləri, salamat qalmaları və ümidləri

**Amerikada çıxan “News Blaze” nəşrində amerikalı jurnalist və publisist Nurit Qringerin “Dağlıq Qarabağdan olan məcburi köçkünlərin itkiləri, salamat qalmaları və ümidləri” sərlövhəli məqaləsi dərc edilib. Materialda Dağlıq Qarabağ münaqişəsinin və Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı reallıqlar haqqında Amerika ictimaiyyətini məlumatlandırmaq məqsədilə bu yaxınlarda Los-Ancelesdə səfərdə olmuş Azərbaycan nümayəndə heyətinin üzvlərinin - Dağlıq Qarabağdan olan məcburi köçkünlərin taleyindən bəhs edilir.**



NewsBlaze HOME BUSINESS ENTERTAINMENT ISSUES SOCIAL THOUGHTS USA WORLD PEOPLE

Nagorno-Karabakh Refugees: Stories of Loss, Survival & Hope

By Nurit Greenger - Fri November 22, 2019

It is most difficult to put into writing a story told by people who have suffered tremendously. That's what happened when I recently met with three men and one woman at a lovely café in Beverly Hills, California. Sitting in the company of Mr. Tural Ganjaliyev, the Chairman of the Azerbaijani Community of the Nagorno-Karabakh region of Azerbaijan; Mr. Gulmammad Mammadov, Professor at ADA University in Azerbaijan and a refugee from Karabakh; Mrs. Durdane Agayeva, a survivor of the Khojaly Massacre; and Mr. Jeyhun Alakbarov, a survivor of the Khojaly Massacre and a board member of the Community, makes you realize what life is all about.

The four are on a speaking and interview tour in Los Angeles. The purpose of the tour is to tell their stories; stories they have passionately told me, with one ending message: we hope for peace, we hope to be able to return to our homes and land. We pray life can be normalized and coexistence between all people in the Nagorno-Karabakh region becomes reality again, just as it was for centuries before Armenia invaded the region, performed atrocities and remained to illegally occupy 20% of Azerbaijan's sovereign land.

Euroasia News from PR Newswire

Senzer's Respiratory Cannabinoid Device Notches Up Another Design Award

David Chaum Announces xx network Technical Details

Envolve Entrepreneurship Celebrates Global Entrepreneurship Week 2019 with Announc...

Orbex Wins Best Forex Broker 2019 Award

AZƏRTAC xəbər verir ki, müəllif Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının sədri Tural Gəncəliyev, Azərbaycandakı ADA Universitetinin professoru Gülməmməd Məmmədov, həmçinin Xocalı qırğınından sonra sanki möcüzə nəticəsində sağ qalmış Dürdanə Ağayeva və Ceyhun Ələkbərov ilə görüşü barədə söhbət açır. Bu dörd nəfərin hamısı Azərbaycanın Qarabağ regionundan məcburi köçkünlərdir.

Qringer qeyd edir ki, Dağlıq Qarabağ münaqişəsi 1988-ci ildə - Ermənistan Azərbaycana qarşı ərazi iddiaları irəli sürəndə başlanıb. Ermənistanın başladığı bu elan edilməmiş müharibə Dağlıq Qarabağ bölgəsində və Azərbaycanın Dağlıq Qarabağa bitişik yeddi rayonunda erməni qoşunları tərəfindən qanunsuz müdaxiləyə, işğala və etnik təmizləməyə gətirib çıxarıb. Hazırda Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisinin təqribən beşdəbir hissəsi Ermənistanın işğalı altındadır.

Müəllif vurğulayır ki, ermənilər bu regiondakı yaşayış məntəqələrinin adlarını dəyişdirməyə və işğal edilmiş ərazilərdə Azərbaycanın mədəni irsini məhv etməyə başlayıblar. Müəllif daha sonra görüşdüyü nümayəndə heyəti üzvlərinin həyatı barədə söhbət açır. Məqalədə 1992-ci ilin fevralında erməni silahlı qüvvələri tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı törədilmiş Xocalı qırğını ilə bağlı vəhşiliklərin təfsilatı qeyd edilir.

Holokostu görmüş insanların qızı olan Qringer Dağlıq Qarabağda vəhşiliklərdən sonra salamat qalmış insanların həyat təcrübəsini öyrənərək öz məqaləsinin sonunda bu nəticəyə gəlib ki, nifrətin sonu yoxdur.

AZƏRTAC

Respublika.- 2019.- 24 noyabr.- S.7.